# Türk hərb sənətinin "Manas" və "Koroğlu" kökləri

**Sahibə Sədnik qızı Paşayeva**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*Folklor İnstitutu*
**E-mail:** psahiba@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., dos. A.X. Ramazanova,
filol.ü.f.d.. dos. Ş.Ə. Albalıyev

**Açar sözlər:** hərb sənəti, türk xalqları, "Manas", "Koroğlu", dastan, ortaq mənəvi dəyərlər
**Ключевые слова:** военное искусство, азербайджанские и киргизские народы, «Манас», «Кероглу», епопея, общие моральные ценности
**Key words:** war art, turkic people, "Manas", "Koroglu", epos, the common spiritual values

Qəhrəmanlıq, igidlik türk köçəri cəmiyyətinin təbiətində idi. Mövcud həyati problemlər, yaşadıqları böyük əraziləri qonşularından müdafiə etmək, daxili nizam-intizamı bərpa etmək xalqdan əsgəri məharət tələb edirdi. Ordu-xalq münasibətləri türk cəmiyyətinin gələcək inkişafını təmin edirdi. "Əsgər taleyi hər bir türkün həyatının mənası idi. Savaş, əsgər şöhrəti onun cəmiyyətdə mövqeyini müəyyənləşdirirdi. Savaş həyatı, əsgəri şücaətlər onun özünün, ailəsinin, tayfasının, nəslinin şərəf, namus işi idi" (1, 33). Hərb tarixi böyük təcrübə mənbəyi olmuş, müasir hərb işinin təşkilində böyük əhəmiyyət daşımışdır.

Türk qəhrəmanlıq tarixi türk-dastançılıq ənənələrində qorunub saxlanmış, oğuz-aşıq, akın sənəti vasitəsilə günümüzə qədər gəlib çatmışdır. Türklərin dastan yaradıcılığının və dastançılıq ənənəsinin tarixi o qədər qədimdir ki, bu gün onu dəqiqləşdirmək belə çox çətindir. "Bu tarixi min illərlə ölçsək yanılmarıq. Burada bir fikri də vurğulamaq lazımdır ki, türk dastanları başlıca olaraq ayn-ayrı tarixi şəxsiyyətlərin, daha çox sərkərdələrin qəhrəmanlıq və igidliklərinə həsr olunmuşdur. Xalq öz qəhrəmanlarının unudulmaması və gənc nəsillər arasında onun daha da güclənməsi üçün onların adına dastanlar qoşmuşdur" (2, 8).

I. "Koroğlu" dastanında türk hərb mədəniyyəti

Türk xalqlarından biri olan Azərbaycan hərb sənətinin tarixi də çox keçmiş zamanlara gedib çıxır. Albaniya dövlətini idarə edən Mehranilər sülaləsinin nümayəndəsi Cavanşir həm də sərkərdəlik bacarığı ilə seçilirdi. 816-837-ci illər arasında məşhur sərkərdəmiz Babək ərəb işğalçılarının 6 ordusunu darmadağın etmişdi. Bu qələbələr bir sərkərdə kimi məhz onun həyata keçirdiyi strategiya nəticəsində əldə olunmuşdu. Erkən orta əsrlərdə Şəmsəddin Eldəniz, onun oğlu Məhəmməd Cahan Pəhləvan, Qara Yusif, Uzun Həsən kimi hökmdar və sərkərdələrimiz də qələbə çaldıqları döyüşləri həyata keçirdikləri xüsusi taktikalar vasitəsilə əldə etmişdilər. Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai 14 il ərzində az qüvvə ilə 14 vilayəti özünə tabe etməyə nail olmuşdu. "Azərbaycan hərb tarixini qəhrəmanlıq tarixi kimi də dəyərləndirmək olar. Amma Azərbaycanın hərb tarixi yalnız qəhrəmanlıq mənbəyi, Vətənə məhəbbət nümunəsi deyildir. Bu tarix həm də böyük təcrübə mənbəyidir və müasir hərb işinin təşkili və uğurla davam etdirilməsi üçün də bu təcrübənin mühüm əhəmiyyəti vardır" (3, 3).

Bu mədəniyyətin izlərinə "Koroğlu" dastanında rast da gəlmək mümkündür. "Özündən əvvəlki türk dastanlarının ən gözəl cəhətlərindən bəhrələnən, türk-dastançılıq ənənələrinin ən yaxşı örnəklərini qoruyub saxlayan "Koroğlu" eposu ... oxşarsızlığı, bənzərsizliyi ilə yadda

qalan orijinal bir söz abidəsi kimi meydana çıxmışdır" (2, 17).

Koroğlu öz ordusu ilə birlikdə qərar tutduğu ərazilərin təbii sərvətlərinə, gediş-gəliş imkanlarına görə hərbi yürüşlərə, dağıdıcı müharibələrə məruz qalmış doğma torpağı, xalqının arzularını və öz mövcudluğunu ağır döyüşlərdə müdafiə etməli olmuşdu. Bu döyüşlərin hər biri də özünün coxsaylı qəhrəmanlarını yetişdirmiş və bugünkü nəsillərə miras qoymuşdu. Koroğlu və onun qoçaq dəliləri böyük bir ərazini müdafiə edərək nəzarət altında saxlaya bilmişdilər. Dastandan da göründüyü kimi, Koroğlu müxtəlif torpaqları ayrı-ayrı sərkərdələrinə dəstəsi ilə qorumağı tapşırmışdı: "Dəmirçioğlu, Qurd Cəlil, Həsən bəy, Canlı Səməd, Yağqıran dəlilərilə Şamlı keçidini-Qanıxlı bərəsini, Sırt Yusif, İsabalı, Cinli Mehdi, Şərxata Mədəd dəlilərilə Yağı qoruğunu, Eyvaz xan, Dəli Çovdar, Halaypozan, Tüpdağıdan, Bəbir Alı dəlilərilə Dardaş keçidini, Şamlı bəy, Dəli Həsən, Adıbəlli, Qorxuqanmaz, Gürcüoğlu dəlilərilə Sınaq keçidini, Giziroğlu Mustafa bəy, Dəli Mehdər, Aşıq Kəngər, Aşıq Cünun mənimlə Çardaqlı Çənlibeli quşdan ayıq, qurddan sayıq qorumalıyıq. Yığışma işarəmiz mənim nərəm, yaxud Giziroğlunun haça şeşpəridir" (4, 280).

Koroğlu bacarıqlı bir sərkərdə, öz qoşununu-dəlilərini düşmənin üstünə apara bilən lider kimi yeritdiyi hərbi taktika və strategiyası ilə döyüşün gedişini öz xeyrinə dəyişməyi bacarmışdır. O, Çənlibelin ərazisində döyüşçü həyat tərzi yaşamış, nə qədər aşıq kimi çalıb-çağırsa da, bir döyüşçü olduğunu heç vaxt yaddan çıxarmamışdır.

Koroğlu mərddir, mübarizdir, məğlubedilməzdir. Onun igidliyini, dəliqanlılığını ifadə edən dəli nərəsi ondan ayrılmazdır. Azərbaycan hərb mədəniyyətinin tarixi obrazları kimi ilk növbədə qılınc və at obrazlarından da bəhs etmək lazım gəlir. Bu obrazlar "Koroğlu" eposundan da bir leytmotiv kimi keçir:

İstanbuldan buta alıb gəlmişəm,
İstanbulda arzumanım qalmadı.
Çənlibel oylağım, Qırat dayağım,
At minməkdə arzumanım qalmadı (4, 81).

Daha bir döyüş səhnəsində də Qırat və Misri qılıncdan belə istifadə olunur: "Koroğlu aşdı, daşdı, aslan kimi coşdu, qaplan kimi qeyzə gəldi. Misri qılıncı çəkdi, tərlan kimi Qıratın belinə yatıb meydana təpildi. Sağdan vurdu soldan çıxdı, soldan vurdu sağdan çıxdı, tacirləri xurd-xəşil elədi. Baxdılar ki, yox, bu zarafat eləməli adam deyil, silahdaşlarını töküb dayandılar, Koroğlu hamısını Qıratın döşünə qatıb Çənlibelə gətirdi" (4, 83).

Xalqın səadətini, istiqlaliyyət və müstəqillik uğrundakı qəhrəmanlıq ideyalarını nümayiş etdirən Koroğlu və onun başına toplaşmış dəliləri (eposda onlar 7777 sonsuzluq rəqəmi ilə şərtləndirilir) müxtəlif döyüş üsullarından bacarıqla istifadə etmişdir.

Koroğlu əlbəyaxa döyüş sənətinin müxtəlif növlərindən məharətlə istfadə etmişdir. O, yalnız fiziki gücə və hazırlığa əsaslanan əlbəyaxa döyüş zamanı hücum və güləşdən, ip, ərkan, dəyənək kimi müxtəlif alət və vasitələrdən, qılınc, cida, nizə, ox kimi müxtəlif təyinatlı silahlardan ustalıqla istifadə etməyi bacarmışdır. Məsələn, "Koroğlu ilə Ərəb Reyhanın döyüşü dastanda belə təsvir olunur: "Dava başlandı, yetmiş yeddi fəndin hamısını işlətdilər. Amma heç biri o birinə döv (qalib) gələ bilmədi. Nə qılıncdan kar aşdı, nə nizədən iş çıxdı, nə əmuddan murad hasil oldu. Axırda Koroğlu qəzəblənib atdan düşdü. Paltarının ətəklərini belinə sancdı. Qollarını çırmadı. Meydanda gərdiş eləməyə başladı. Ərəb Reyhan da atdan düşdü. Küstü başlandı" (4, 71).

Dastan tüfəng və güllə terminləri ilə bitir. Əsərin sonuncu boylarından aydın olur ki, XVI

əsrdə tüfənglər də məişətə və orduya daxil olurdu. XVI əsrdə dəmirçilik peşəsi inkişaf etdikdən sonra kükürd ilə doldurulan borular muşketlərlə əvəz olunmağa başlayır. Muşketlər sürətlə inkişaf etdirilərək döyüş meydanlarında geniş tətbiq olunurlar. İpli alışqan getdikcə çaxmaq daşları (bu Filint də adlanır) ilə əvəz olunmağa başalyır. Bütün bunlar tüfəngin daha da geniş tətbiq edilməsinə imkan yaradır. Artıq insanlar özlərini, ailələrini, var-dövlətlərini qorumaq məqsədilə odlu silahlardan istifadə etməyə başlamışdılar. "Koroğlu paslı Misri qılıncını belinə bağlayıb Nigarı da yanına alıb piyada harasa gedirdi. Amma kişinin çiynində yarı taxtı, yarı dəmir bir şey var... Kişinin yanına gəlib soruşdu: -Ay kişi, bu nədi çiyninə keçiribsən? Kişi dedi: -Bu, tüfəngdi. -Tüfəng nədi? -Bunun içində güllə olur. Adama, heyvana dəyəndə öldürür" (4, 446).

II. "Manas" dastanında türk hərb sənətinin əksi

Qırğız xalqının qəhrəmanlıq eposu olan "Manas" dastanı bu böyük tarixi və mədəniyyəti yaşadan ədəbi abidələrdən biridir. Burada əsas yeri xarici düşmənlərin hücumlarının qarşısının alınması, qonşu tayfalarla yerli, bəzən isə geniş hərbi yürüşlərə səbəb olan mübahisələri, doğma torpaqların geri qaytarılması və müstəqilliyin qazanılması uğrunda aparılan mübarizə, dost tayfalara və qonşu xalqlara ümumi düşmənlə mübarizədə silahlı köməyin göstərilməsi kimi hərbi toqquşmaları əks etdirən səhnələrin təsviri mühüm yer tutur.

Daha güclü qonşuların qırğız xalqının azadlığına, müstəqilliyinə, hətta mövcudluğuna müdaxilə etməsi bu xalqda qabaqcıl hərbi təcrübənin formalaşmasını şərtləndirdi. Atlı qoşun dəstələrindən, skiflərin hərbi taktikasından düşmənə qətiyyətli zərbə vurmaq üçün istifadə etməsi qırğızların hərbi işində yeni mərhələnin başlanğıcı oldu.

"Manas" dastanında türk ordusunda mövcud olan intizamdan ətraflı söhbət açılır. Belə ki, türklər uşaqlarına kiçik yaşdan ehtibarən ata minməyi, qılınc istifadə etməyi və ox atmağı öyrədərək onları əsgər kimi yetişdirirdilər. Türk hərbi sistemi içərisində at ən önəmli vasitə idi. At türk xalqlarının günlük yaşayışında olduğu qədər, hərb həyatında da keçilməz bir vasitə idi. Onlar atlardan məharətlə istifadə sayəsində hər cür savaş manevrasını və taktikasını ən yaxşı şəkildə tətbiq edirdilər. Türk atları sürətli və çox davamlı idi. Manasın ordusunda ağır silahlanmış atlı dəstələrin olması haqqında belə məlumat almaq olar: "Ox işləməz zirehli əlbisələri qırx çoroya verdi... Tovuz kimi səkən xatun aslan kimi çoroların hər birinə çoxdan bəri savaş üçün öyrədilmiş qırx at hazırlamışdı. Atların sağrısına qaplan dərisindən örtük örtüb bellərinə bəzəkli yəhər qoymuşdu. Onun üstünə su samuru dərisindən düzəldilmiş döşək qoyub, tərklərinə də göy davul yerləşdirmişdi" (5, 220).

Qırğız eposunda zirehli geyimlərin təsvirinə də geniş yer verilmişdir. Döyüşkən qırğız əsgərləri müdafiə silahı kimi zireh, qalxan, dəbilqə və s. istifadə edirdilər. Zireh döyüşçünü hücum silahlarının zərbəsindən qoruyurdu və məftil vasitəsilə bir-birinə bağlanmış kiçik dəmir təbəqələrdən düzəldilirdi. Dastanda qırğızların soot, sebil, badana, olpok, çopkut adlanan hərbi geyimlərdən istifadə etmələri haqqında daim məlumat verilir: "İki tərəfin əsgərləri çayın iki sahilinə ayrılıb bir-birlərinə ox atdılar, zirehlər parçalandı, şiddətli çarpışma getdi" (5, 120). "Yaxasız zirehli libas geyinən nazik bığlı, enlisifət, itibaxışlı məmur Konqurbay başda olmaqla bahadır Neskaranı və Böyük Yoloyu (Coloyu) bir xeyli əsgəriylə təqibə göndərdi Esen xan" (5, 134). Bu zireh əsgərləri düşmənin zərbələrindən qoruyurdu. "Tulus göy dəmirdən zireh geyinmişdi. Əzəmətli bir qalxan vardı, əlinə göy mizrağını, öküzün belinə bənzəyən yayını aldı. Qaplan kimi heybətlə atını mahmızladı" (5, 85) "Kükrəyən at kimi cövlan edən Coloy əli bayraqlı əsgərlərini Kutubəyə tərəf hərəkətə gətirdi. Oxlar dolu kimi yağdı. Düşdüyü yeri yandırıb-yaxdı. İgidlərin toppuzu və zirehi parçalandı" (5, 95).

"Manas" dastanında adları çəkilən hərbi silahlar və geyimlər özlərində tarixi, etnoqrafik və

arxeoloji izləri daşımaqdadır.

"Manas"ın qəhrəmanları öz qüvvələrini yalnız döyüş meydanlarında deyil, yarışlarda da sınayırdılar. Bu zaman əldə edilən vərdişlər onlara döyüşlərdə lazım olan qələbəni qazandıra bilirdi. Dastanda adı çəkilən güləş idmanın ən qədim növlərindən biridir. Pəhləvanlar meydanda dolaşır, elə bil ki, bir-birini başdan-ayağa süzür və birdən hücuma keçirdilər. Hər güləşçinin sevimli bir fəndi var idi. Biri öz rəqibinin ayağından tutmağa çalışır, o birisi isə onun başını qoltuğu altında sıxırdı. Rəqibinin çiynini, kürəyini və ya dizini üç dəfə yerə vuran güləşçi qalib sayılırdı. "Manas dastanı"nda bu idman növündən istifadə etməklə aparılan yarış haqqında məlumatı belə almaq olar: "Gözləri açılıb rahatlanan ixtiyarın beli buğa beli kimi oldu. Saqqalını sığallayıb bəyaz aslan kimi güləş meydanına atıldı... Yekəpər Coloy qocaman Koşoyun biləklərindən yapışdı. Güləş üçün doğulmuş çevik Koşoy dərhal biləklərini onun əllərindən çıxartdı... Ər Koşoy bir anda qeyrətə gəldi, qızaran biləyinə baxmadan Coloyun qabırğasının ətindən ayaq boyda bir yeri tutub çəkdi. Tanrı göstərməsin, dünyanın iki divi qana boyandı. Bir-birlərinə qoç kimi şığıdılar. Tutduqlarını qopartdılar, ağızlarından alov püskürdülər, gözlərindən atəş saçdılar, paçalarından yapışıb bir-birilərinə dirəndilər, sinə-sinəyə tutaşdılar. Amma bir-birilərini yıxa bilmədilər. İki pəhləvanın güləşindən Qarqıranın çöllüyü ocaq yeri kimi qazıldı, tozu ərşə çatdı, yer alt-üst oldu, buna bütün xalq heyran qaldı. İki div altı gün güləşmələrinə baxmayaraq bir-birilərini yıxa bilmədilər, bir-birilərinin öhdəsindən gələ bilmədilər... Güləşə öyrəncəli div Koşoy sağ budu ilə Coloya badalaq vurub yerə yıxdı. Ər Koşoy Kalmıkın başından adlayıb keçdi" (5, 201-202). "Qırğızlar sevinclərindən onları xilas edən Koşoyun adını çığır-bağırla vurğuladılar. Ər Koşoya xalqdan öncə ox kimi yetişən qırx çoro onu əllərinin üstündə qaldırdılar..." (5, 201-202).

At yarışı, ən qədim və ən məşhur idman növlərindən biri sayılırdı. Atçılıq yarışlarına aşağıdakı idman növləri daxil idi:

— At yarışları (cıdır)
— Oxatma yarışları
—Qılıncoynatma yarışları
— Nizəatma yarışları

Dastandan həmin yarışlar haqqında məlumatı belə almaq olar: "Başı qalpaqlı İramandın İrçıoğlu yanına şəyirdi Çaş Aydarı alıb qələbəlik xalqa at yanaşı olacağını eşitdirdi. Əzəldən bəri at sevən qırğızlar ziyafətin mənasını cıdıra çıxmaqda-at yarışında görürdülər. At yarışında birinci olana səksən min at, min dəvə, ayrıca yüz min qoyun mükafat təyin edilmişdi. Altmış bir ata mükafat vardı. Davul çalındı, atlar yarış xəttinə-küknar ağacının yanına sürüldü" (5, 194).

"Çox keçmədən Çaş Aydar atları rəsmi keçidə gətirdi. Uzmanlar gözləriylə yarış atlarını sezdilər... Kimisi pıçı-pıçıya keçdi, kimisi heyrətlənib rəsmi keçiddəki atların haradan gəldiyini, növlərini, cinslərini, qələbəni hansı atın qazanacağını təxmin etməyə çalışdı. Bir-birindən gözəl yarış atları hər yandan, gündoğanla-günbatanın arasından seçilərək gətirilmişdi. Sıraya düzüləndə quş kimi çevik görünürdülər" (5, 198).

Türklərin hər şəhərində at yarışı üçün bir sahə olurdu və hər cümə günü təşkil olunan yarışlarda onlar güclərini sınayırdılar.

Dastanda Manas öz igid döyüşçüləri ilə birlikdə basqın şəklində hücumlar etməklə düşmən üzərində böyük çaşqınlıq yaradırdılar. Onların əvvəlcə aparılan kəşfiyyat səfərləri, sonradan başlanan savaşlar düzgün tutduqları strategiyadan xəbər verirdi. Süvari birliklərin düşmənin-çinlilərin və kalmıkların gizli şəkildə içinə daxil olur, qəfildən hərəkətə keçərək onu dövrəyə alır və onları məhv edirdilər. "Manas dastanı"nda məşvərət edən bəylərin əksəriyyəti ya sancaq

bəyləri, ya da igidlikdə ad çıxarmış bəylər idi. Ciddi bir döyüşə başlamazdan əvvəl qoşun başçıları olan bu bəylərin fikir yekdilliyinə nail olmaq hərbi baxımdan da xüsusi əhəmiyyət kəsb edirdi.

**Məqalənin aktuallığı.** “Koroğlu” və “Manas” dastanlarında Azərbaycan və qırğız xalqlarının hərb sənətini öyrənmək problemin indiyədək öyrənilməməsi baxımından böyük əhəmiyyət kəsb edir və bu problem aktuallığa malikdir.

**Məqalənin elmi yeniliyi.** “Manas” və “Koroğlu” eposları qohum mədəniyyətimizin eyni köklərindən xəbər verir. “Koroğlu” və “Manas” dastanlarında Azərbaycan və qırğız xalqlarının hərb sənəti, silah və geyimləri bədii və ətraflı şəkildə təsvir olunur, onların hazırlanması və döyüşlərdə istifadə edilməsi haqqında məlumat əldə olunur. Bunlardan başqa, hər iki dastan türk hərb sənətinin-məharətinin qanun və üsullarını, hərbi silah və texnikanın, hərbi təbabətin və hərb işinin digər müxtəlif sahələrinin tarixini də öyrənməyə kömək edir.

**Məqalənin praktik və tətbiqi əhəmiyyəti.** Məqalədən din tarixinə, o cümlədən XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair tədqiqatlarda nəzəri qaynaq kimi istifadə etmək olar.

## Ədəbiyyat

1. Əsgər Ə., Qıpçaq M. Türk savaş sənəti. Bakı: Yazıçı, 1996, 174 s.
2. Sadıq İ. Azərbaycan “Koroğlu” eposu (I kitab). Bakı: Elm və təhsil, 2015, 248 s.
3. Süleymanov M. Azərbaycanın qədim və orta əsrlər hərb tarixi. Bakı: Elm və təhsil, 2016, 416 s.
4. Koroğlu: Dastan. Bakı: Lider, 2005, 552 s.
5. Manas dastanı. Bakı: Nurlan, 2009, 290 s.

**С.С. Пашаева**

## Корни тюркского военного искусства в «Манас»е и «Короглу»
## Резюме

Военное искусство тесно связано с этнической, материальной и духовной историей, традициями, образом жизни, привычками и мышлением каждого народа. Военное искусство тюркских народов отличалось своей физической силой, оружием и различными видами боевых искусств, а также мудростью и силой разума. Героические хроники азербайджанского и кыргызского народов, отраженные в «Манас»-е и «Кероглу», являются художественными произведениями, в которых показаны способы и средства традиционного военного искусства, носителями общих моральных ценностей боевых искусств, которых являются тюркские народы. Они сохранили древние следы тюркской культуры и создали богатую и героическую военную школу для будущих поколений. Манас и Кероглу - это ведущие герои обоих эпосов, которые вместе со своими сподвижниками мстили своим врагам и защищали свой народ от посягательств.

**S.S. Pashayeva**

## Roots of the eposes “Manas” and “Koroglu” of Turkic war art


## Summary

War art is closely connected with the ethnic, material and spiritual history, traditions, life styles, habits and thinking of every nation. The Turkic war art has collected these elements in itself, it has also distinguished with the physical power, weapons, different types of battle art, including with wisdom and strong intelligence. The heroic chronicles of Azerbaijan and the Kyrgyz people, such as “Manas” and “Koroglu” are the artistic works that reflect the ways and means of fighting, as well as bearers of the common moral values of Turkic war art. Preserving the ancient signs of Turkic fight culture, they have created a rich and heroic military school for future generations. Manas and Koroglu who were the leading force of both eposes had taken revenge on their enemies together with their heroes and were protectors of their nations. These people gained the status of heroism had also understood their duties very well. Though the eposes “Manas” and “Koroglu” have been created at different stages of the great Turkic history, both eposes are the indisputable expressions of the national-aesthetic thinking and moral-spiritual education of the war art of Azerbaijan and Kyrgyz people.


**Redaksiyaya daxil olub:** 20.12.2019